PLATON

EVTİFRON

EVTİFRON, SOKRAT

Evtifron. Bu nə gündür düşmüsən, ay Sokrat? Likeydə* danışmağın daşını atıb, indi də gününü məhkəmə qabağındamı keçirirsən? Yoxsa sənin də mənim təki, məhkəməyə kimdənsə ağzıacılığınmı(şikayətinmi) var?

Sokrat. Mənim düşdüyüm duruma afinalılar ağzıacılıq eləmək yox, işə düşmək deyirlər, ay Evtifron.

Evtifron. Sən nə danışırsan? Kimsə sənin üzünəmi durub? Ancaq mənə elə gəlir, tərsinə olar, sən kimisə məhkəməyə çəkmiş olarsan.

Sokrat. Yox, elə deyil.

Evtifron. Demək, səni kimsə suçlayır, eləmi?

Sokrat. Elədir.

Evtifron. Kimdir o elə?

Sokrat. Mən özüm də onu yaxşı tanımıram: eşitdiyimə görə, az tanınan, hansısa gənc bir şairdir; mən bilən adı da Meletdir, Pitfa oymağındandır. Pitfalı Melet deyilən birisini göz önünə gətir: uzunsaç, seyrəksaqqal, donqar burun,–beləsini tanımırsan?

Evtifron. Yox, Sokrat, sözün düzü, beləsini görməmişəm. Yaxşı, o, nə deyib sənin üzünə durur?

Sokrat. Səni necə başa salım! Bəri başdan deyim, yamanca bərk dirənib üzümə! Belə gənc yaşda bu sayaq işlərə baş qoşmaq sənə qolay gəlməsin. Deməyinə görə o, gənclərin niyə yollarından azdıqlarını da, onları bu yanlış yolllara çəkənin kimliyini də, bilirmiş. Belə çıxır o, çox bilgin birisi, mən isə anlamazın yekəsiyəmmiş, sən demə, mən gəncləri əyri yollara çəkib sapdırıram, o isə bunu anladığından, anamız-şəhərin qarşısında məni bu suçuma görə yazıqlamaq istəyir. Mənə elə gəlir, bütün dövlət adamlarının arasında yalnız o, şəhərimizi necə düzgün yönətməyin yolunu bilir: bax bir, yaxşı əkinçi necə, öncə tarlasındakı cücərtiləri bəsləməyin qayğısına qalıb, bütün qalan işlərini sonraya saxlayırsa, o da elə bunun təki, ilk öncə gənclərin düzgün böyüməsi qayğısına qalır. Bax beləcə, Melet öncə gənclik "cücərtilərini" yaxşı böyüməyə qoymayan bizim təki "alaqları" aradan götürmək, ancaq bundan sonra, yaşlıların da qayğısına qalmaq, şəhərimiz üçün görəcəyi başqa böyük işləri də yoluna qoymaq istəyir: məncə dəyərli işlər görmək istəyənlərin hamısı elə belə də eləyir.

Evtifron. Şəhərimizin işlərinin yaxşı geməsini, məncə elə hamı istəyir, Sokrat. Sənin danışdıqlarına gəlincə, qorxuram tərsinə ola: mənə isə elə gəlir, o sənə qarşı yanlış davranmaqla öz evini yıxacaq, od-ocağını söndürəcəkdir. Yaxşı, bir mənə de

görüm, o, sənin gəncliyi düz yoldan azdırmağına, adamları necə inandırmaq istəyir?

Sokrat. Onun dediklərinə inansaq, mən özümü büsbütün şaşırmışam. Deməyinə görə, mən özümdən yeni tanrılar uydururam, başqalarını da bu yeni, qondarma tanrılara inanmağa çağırıram, özüm də indiyədək olan tanrıları saya salmıram.

Evtifron. Anladım, Sokrat, ancaq mənə elə gəlir, bu sözlər sənin öz danışıqlarında: "uzaqgörənliyim məni tez-tez yoluxur, mən onun səsini eşidirəm" deməyinə görə də ortaya çıxır. Deməli, bu Melet deyilən kim isə, sənin tanrılarla bağlı düşüncələrindəki yeniliklərə ilişərək, səni bunlara görə suçlamağa çalışır, məhkəməni də aldatmaq istəyir, özü də, sənin tanrılarla bağlı danışıqlarındakı bu yeni yozumların, çoxluğun gözündə qolayca, yanlış olaraq anlaşıla biləcəyini də çox yaxşı bilir. Elə ondan götür də, mən öz baxıcılığımla, tanrıların bizim üçün nələr göndərəcəyini açıb deyəndə, bu çoxluq məni ələ salıb gülür. Baxmayaraq, mənim öncəgörmələrim hamısı indiyədək çin çıxıb, ancaq belələri eyzən mənə qarşı gözügötürməzlik eləyirlər; mənə elə gəlir, gərək bu içiqurdlu adamları saya salmayıb, öz işini görəsən, yeri gələndə isə lap onlarla dirəşəsən də.

Sokrat. İstəkli Evtifron, onların məni ələ salmaq istəmələrindən çəkinib eləmirəm. Bu afinalılar var ha, kiminsə fəlsəfədə çox güclü olmasından azacıq da olsa qıcıqlanmazlar, ancaq onun öz biliyini başqalarına öyrətmək bacarığının olduğundan duyuq düşdülərmi, bax onda onların üzünü görmə. Birdən kiminsə başqalarını da başına toplayıb, öz bildiklərini onlara öyrətmək istədiyini bilsələr, vay o gündən, onlar buna görə elə bərk hikkələnirlər, mən özüm də sözün düzü, deyə bilmirəm, bu gözügötürməzlikdəndir, yoxsa bunun adı nədir.

Evtifron. Düzünü desəm, onların mənə necə yanaşmaqlarından, azacıq da olsa belə, qıcıqlanmıram.

Sokrat. Ola bilsin, onlar sənin öz bilgəliyini başqalarına öyrətmək istəmədiyini düşünürlər. Ancaq mənə gəlincə, onların düşüncəsinə görə, mən özümün yaxşılıqsevərliyimdən, bildiklərimi kimə gəldi öyrədirəm, özü də bundan gəlir də güdmürəm, qazancım isə insanların mənim sözlərimi dinləməsi olur. Bir də deyirəm, onlar mənimlə də, səni ələ saldıqları kimi davransaydılar, nə vardı, gəlib burada, məhkəmədə, onlarla deyib gülərdik, qurtarıb gedərdi; ancaq məncə, onlar bu işi çox ağırlaşdırmaq istəyirlər, bunun nəylə qurtaracağını isə bilmək olmur, yalnız, ola bilsin, sizin kimi baxıcılar bunun sonunun nə ilə bitəcəyini bilsinlər.

Evtifron. Sokrat, məncə, bu işin axırı yaxşı qurtaracaq, necə mən, başlamaq istədiyim bu məhkəmə çəkişməsini udacağıma arxayınam, sən də eləcə, bu çəkişməni udacaqsan.

Sokrat. Doğrudan a, sənin burada nə işin var, ay Evtifron? Sən bu qoşulduğun işdə sorumlusan, yoxsa kimisə suçlayırsan?

Evtifron. Suçlayıram.

Sokrat. Suçladığın kim ola?

Evtifron. Elə birisidir, qorxuram, eşidib bilənlər buna görə məni dəli sayalar.

Sokrat. Nə üçün? Yoxsa sən, ələkeçməz olan birisini tutub bura gətirmək istəyirsən?

Evtifron. Nə ələ keçməzlikdir, ay kişi, çəkişdiyim əldən-dildən düşmüş bir qocadır.

Sokrat. Kimdir o elə?

Evtifron. Özcə atam.

Sokrat. Nə danışırsan, sənin ağsaqqal atanmı?

Evtifron. Elədir, o!

Sokrat. Yaxşı, bir de görək, o nə eləyibdir belə, sən onu nədə suçlayırsan?

Evtifron. Mən onu adam öldürməkdə suçlayıram, Sokrat.

Sokrat. And olsun Herakla, sənin bu sözün mənə çatmadı! Mənə elə gəlir, ay Evtifron, buradakı məhkəmədə işləyənlərin çoxu da, sənin bu işdə düzgünmü, yanlışmı olduğunu ayırd eləyə bilməzlər. Məncə, bu sayaq suçlama ilə birinci dönə üzləşən, kim olur-olsun, bu işdən baş aça bilməz, birdən burada çoxdan işləyən, çox bilikli birisi tapılsa, ola bilsin, onun bu işdən başı çıxar.

Evtifron. And olsun Zevsə, elə mən də buna güvənib bura gəlmişəm.

Sokrat. Sözsüzdür, sənin atanın öldürdüyü kim isə, ev adamlarından biri olmuş olar? Elə bilirəm, sən yad bir adama görə atanı məhkəməyə çəkməzdin, deyilmi?

Evtifron. Çox gülməli danışırsan, ay Sokrat, öldürülən doğma olsun, yad olsun, bu nəyi dəyişir?–yoxsa sən bilmirsən, burada ölənin də, öldürənin də kim olması önəmli deyil, önəmli olan, öldürənin bu işi düzgün eləyib-eləmədiyini ayırd etməkdir, ən başlıcası isə, bu işdə yanlışı varsa, kimliyindən asılı olmayaraq, onu məhkəmə qarşısına çıxarmaqdır. Sən onun suçunu bilərək, buna göz yumur, onunla oturub durursansa, onu da, özünü də, bu suçdan arıtmaq üçün məhkəmə qurulmasına çalışmırsansa, onda elə, özünü də ona tay tutub alçaldırsan. Nə isə, ölən mənim günəmuzd işçilərimdən biri idi; onda biz Naksosda olan əkin yerlərimizi şumlatdırırdıq. Günlərin bir günü o, bərk içkili olur, bizim qullardan biri ilə dalaşaraq, onu bıçaqlayıb öldürür. Atam onun əl-qolunu bağlatdırıb

yaxınlıqdakı çuxura atdırır, sonra bu adamla nə eləməli olduğunu öyrənmək üçün, ekzeqatın* dalınca adam göndərir. Göndərdiyi adam qayıdanacan, atam bu adam öldürənin qayğısına qalmır: o ölsə belə, bunun altını çəkməyəcəyini düşünür. Bu isə, gözlənilmədən, düşüb ölür. Bilmək olmur, soyuqdanmı, aclıqdanmı, yoxsa əl-qolu bağlı olduğundanmı, ekzeqatdan soraq gətirən adam gəlib çıxanacan, bu adam keçinir. İndi də, mənim atamı hansısa bir yaramaz ölütçüyə(qatilə) görə məhkəməyə vermək istədiyimi görüb, atam da, elə evdəkilərin hamısı da, mənə bərk acıqlanıblar, onların deməsinə görə, atam kimisə öldürməyib, bu adam onun suçu ucbatından ölübsə də, ona lap yerində olub, o, vurub başqasını öldürməsəydi, özü də ölməzdi, deyirlər, oğulun öz atasını ölüm işinə görə məhkəməyə çəkməsi küfrdür. Ancaq, mənim bildiyimə görə, onlar tanrı yasalarını yaxşı anlamadıqlarından belə düşünürlər, ona görə də, nəyin möminlik, nəyin kafirlik olduğunu ayırd eləyə bilmirlər.

Sokrat. Səni and verirəm Zevsə, Evtifron, bir mənə de görüm, sən doğrudanmı özünü tanrı yasalarının da, möminliyin də, kafirliyin də, belə dərin bilicisi sanırsan?- lap elə deyilənlər sən danışdığın kimi olubsa da, atanı məhkəməyə çəkməyin küfr ola biləcəyindən qorxmursanmı?

Evtifron. Bu sayaq işlərdən baş açmasaydım, mənim ömrümün nə dəyəri olardı, ay Sokrat, onda Evtifron* bu, anlaqsız çoxluqdan nə ilə seçilərdi?

Sokrat. Dəyərli Evtifron, onda belə görünür, indiki çağda mənim üçün də ən yaxşı çıxış yolu sənin öyrənçin olmaqdır, sən məni öyrətsən, onda mən də bu Meletlə çəkişməzdən öncə, özüm onu qabaqlayıb, məhkəmədə ona qarşı iş açdırardım, sonra da bu qurulan məhkəmədə, hamının gözü qarşısında, öncələr də tanrı

yasalarını qavramağa böyük dəyər verdiyimi açıqlayar, indi isə bunların böyük bilicisi olan sənin öyrənçin olduğumu ortaya qoyardım, bununla da, Meletin məni tanrı yasalarına sayqısızlıqda, onları dəyişdirmək istəməkdə suçlamasının ağ yalan olduğunu hamıya çox qolayca anladardım. Özümə arxayın olduğum üçün, onun üstünə çımxırardım da: "Melet, sən bu işlərdə Evtifronu bilgə sayırsansa, onda biləsən, mən tanrı yasalarını ondan öyrəndiyim üçün də, ən düzgün yol tutmuşam, ona görə də mənim yaxamdan əl çək; yox birdən belə düşünmürsənsə, onda sən gəl öncə, mənə bu işlərin düzünü öyrədən Evtifronun üzünə dur, yoxsa sənin deməyindən belə çıxır, o indi, biz iki qocaların başını batırmaq istəyir, məni–yanlış öyrədir, atasını isə, məhkəməyə çəkib yazıqlamaq istəyir." Birdən o mənə inanmayıb, üzümə durmaqdan çəkilməsə, mənim yerimə sənin üzünə durmaq istəməsə, onda mən özüm məhkəməyə üz tutub, bunun üçün dirənərdim.

Evtifron. And olsun Zevsə, Sokrat, işdir birdən, o mənim üzümə durmaq istəsə, onda mən onun elə gizlin işlərini tapıb ortaya qoyaram, bizim üçün qurulan məhkəmə dönüb onun özünə qarşı olar.

Sokrat. Bax elə bunu bildiyimə görədir, istəkli arxadaşım, sənin öyrənçin olmaqdan yana əldən-ayaqdan gedirəm də, bir də bilmirəm nədənsə, bu Melet də, başqaları da, səni görməməzliyə vururlar, mən isə elə bil, onların gözünə ox olub batmışam, görmürsənmi, bu Melet necə əlimyandı ilə məni tanrıtanımaz deyə qaralayır? Səni and verirəm Zevsə, məni başa sal, de görüm, sənin indicə kəsinliklə bildiyini dediyin o möminliklə, kafirlik nədir elə?—sən də bunları belə yaxşıca bildiyin üçün, adam öldürməkdən tutmuş, bütün başqa durumlara kimi, hamısını düzgün dəyərləndirə bilirsən? Mənə de görüm: ayrı-ayrı durumlarda üzə çıxan,

möminliyin göstəricisi olan savab işlərin hamısı, biri-biri ilə tən deyilmi? eləcə də bütün küfrlər də biri-biri ilə tən olaraq, hamısı birlikdə, möminliyin tərsi deyilmi? bütün küfrlər, tək bir–kafirlik adlanan ideyadan doğmurmu?

Evtifron. Sən düz deyirsən, Sokrat, elə dediyin kimi də var.

Sokrat. Elə isə, di de görək, sən nəyə savab, nəyə küfr deyirsən?

Evtifron. Mən belə düşünürəm: indi mənim görmək istədiyim iş savabdır, sözün qısası, adam öldürən, Tanrı Ocağını talayan, başqa bu kimi suç işləyənləri,- bunlar istər atan, anan olsun, istərsə də bir başqası,- məhkəməyə çəkib gətirmək savab iş sayılmalıdır; bunu eləməmək isə küfrdür. Mənə bax, Sokrat, istəyirsən mən sənə, yasaların elə mən deyən kimi olmasının doğruluğunu göstərən çox inandırıcı bir örnək deyim(mən bunu artıq başqalarına danışmışam). Ən düzgün iş, kimliyindən asılı olmayaraq, suç işlədənə acımamaqdır: bax bir, Zevsin ən böyük, ən düzlüksevər tanrı olmasına hamı inanır, bununla yanaşı onun, doğulan uşaqlarını basıb yediyinə görə, öz atasını qandalladığını da hamı bilir, elə Zevsin atası da, bu sayaq işdəklərinə görə, öz atasını qandallamışdı. İşə bax ha, indi bu adamlar atamı suçlu olduğu üçün məhkəməyə çəkdiyimə görə, məni qınayırlar, beləcə tanrılara qarşı da, elə mənə qarşı da, yanlış davranırlar.

Sokrat. Evtifron, sözün düzü, tanrılardan belə gəlişigözəl sözlər danışanda mən eyzən qıcıqlanıram, yoxsa elə ona görəmi, indi mənim üzümə dururlar? Ola bilsin, belə danışıqlara inanmadığımı bildiklərindən, kimlərsə ortaya çıxıb, məni tanrı yasalarını pozmaqda suçlamağa başlayıblar. İndi sənin kimi, bu işlərdən yaxşı başı çıxan birisi də, mənim inanmadığım bu sözlərin doğru olduğunu deyirsə, mən gərək bu düşüncələrimdən daşınam. Mən özüm bu işlərdən yaxşı baş açmadığımı

boynuma alıramsa, başqa necə ola bilər? Səni and verirəm, bizim arxadaşlığımızı qoruyan tanrılara, sən tanrılar arasında baş verdiyi danışılan bu olaylara, özün, ürəkdən inanırsanmı?

Evtifron. Bu dediklərimin doğruluğuna söz ola bilməz, ancaq nə yazıq, çoxları bu danışdıqlarımı nə eşidib, nə də bilirlər.

Sokrat. Deməli, tanrılar arasında savaşların, yağılıqların, tutaqlaşmaların olmasını yazan şairlərin sözünə sən inanırsan, bu olayları göstərən rəsmlərin, heykəllərin gerçəyi anlatdığını düşünürsən, eləmi? Tutalım, böyük Panafiney bayramında, Akropolda, tanrıların başına gəldiyi deyilən belə olayların çəkildiyi şəkilləri göstərirlər ha, indi sən deyirsən, orada çəkilənlər hamısı doğrudur?

Evtifron. Bu şəkillərdə çəkilənlər tanrıların başagəldilərinin hamısı deyil, mənim bir az öncə tanrılar üçün danışdıqlarımdan başqa da, çoxlu belə olaylar vardır; istərsən, mən sənə tanrıların arasında baş verən işlərdən elə sözlər danışaram, yerində quruyub qalarsan.

Sokrat. Sənə necə inanmayasan! Ancaq sən bunları bir başqa gün, boş çağımızda danışarsan, indi isə mənim bir az qabaqkı sorğumu yanıtla. Sən bir az öncə, mənim möminlik nədir sorğumu yetərincə yanıtlamadın, indi görmək istədiyin işi örnək göstərib, öz atanı ölüm işinə görə məhkəməyə çəkməyinin möminliyə uyğun, savab bir iş olduğundan başqa, tutarlı bir söz demədin.

Evtifron. Mən sənə sözün düzünü dedim, Sokrat.

Sokrat. Tutalım, belədir. Ancaq elə sən özün də, çoxlu başqa durumlarda üzə çıxan savab işlərin olduğunu da danmırsan?

Evtifron. Sözsüz, belədir.

Sokrat. Unutmamısansa, mən səndən möminliyə uyğun olan davranışlardan bir-ikisini sadalamağı istəmişdim, özü də elə olsun, bunlara baxanda, qalan bütün savab işləri doğuran ideyanı anlamaq olsun, birbaşa o ideyanın gücü ilə, möminliyə uyğun olan işlərin hamısının yarandığı görünsün. Biz deməmişdikmi, tək bir ideyanın gücü ilə, möminlik də, kafirlik də özləri olaraq ortaya çıxırlar?

Evtifron. Elədir, demişdik.

Sokrat. Yaxşı da, indi bu ideyanın nə demək olduğunu mənim üçün aydınlaşdır, mən də bunu örnək olaraq götürüb, sənimmi, bir başqasınınmı elədiklərinin, möminlikmi, yoxsa bunun tərsi olan kafirlikmi olduğunu anışdıra bilim.

Evtifron. Neynək, Sokrat, istəyin budursa, mən bunu sənə deyərəm.

Sokrat. Hə, elə bunuca istəyirəm.

Evtifron. Beləliklə də, möminliklə kafirliyin nə olduğunu öncədən ayırd etmək üçün belə bir ülgü vardır: savab işlər–tanrıların bəyənəcəkləri, küfr işlər isə, onların bəyənməyəcəkləri işlərdir.

Sokrat. Bunu nə gözəl dedin, ay Evtifron! Mən səndən nə eşitmək istəyirdimsə, elə onu da dedin. Düzdür, sənin bu dediklərinin doğru olub-olmadığını mən bilmirəm, ancaq elə bilirəm, sən dediyin sözün arxasında durub, onu doğrultmağı da bacararsan.

Evtifron. Düz tapmısan.

Sokrat. Gəl indi, bayaq dediklərimizə bir də, yenidən baxaq: özlərini tanrılara bəyəndirə bilən bütün nəsnələr, o sıradan, bu sayaq insanlar da, möminlik ideyasına uyğun gəlirlər, özlərini tanrılara bəyəndirə bilməyənlər, yenə o sıradan, bu sayaq insanlar da, kafirlik ideyasına uyğun gəlirlər, buradan isə, möminliklə

kafirliyin bir ola bilməməsi, onların biri-birinə büsbütün tərs olması ortaya çıxır. Elə deyilmi?

Evtifron. Düzdür, elədir.

Sokrat. Necə düşünürsən, bu söz yerindəmi deyilib?

Evtifron. Sokrat, mən indicə belə düşündüyümü dedim də.

Sokrat. Demək, sən tanrıların arasında savaşların, çəkişmələrin olduğuna da inanırsan?

Evtifron. Elədir, inanıram.

Sokrat. Yaxşı, gəl baxaq görək, biri-birinə acıqlanmaq, biri-biryilə yağı olmaq, hansı anlaşılmazlıqlardan törəyir? Çəkişmələr nədən yaranır? Gəlsənə, belə bir örnəyə baxaq: birdən sənlnlə mənim aramda nəyisə saymaqda anlaşılmazlıq yaransa, bundan ötəri biz biri-birimizə acıqlanıb savaşardıqmı, yoxsa oturub yenidən, bir az da düzgün sayaraq, bu anlaşılmazlığı yoluna qoyardıq?

Evtifron. Sözsüz, belə də eləyərdik.

Sokrat. Tutalım, hansısa nəsnələrdən birinin o birindən böyükmü, kiçikmi olmasında anlaşmasaydıq, onda ölçüb-biçib, tezliklə çəkişməmizi dayandıradıq, deyilmi?

Evtifron. Hə, elədir.

Sokrat. Birdən hansısa nəsnənin o birindən ağır-yüngüllüynü ayırd eləməkdə sözümüz düz gəlməsə, onları çəkib bunu ayırd edə bilərdikmi?

Evtifron. Sözsüz, belə də eləyərdik.

Sokrat. Yaxşı, onda hansı anlaşılmazlıqlardan acıqlanıb, biz biri-birimizə yağı olardıq? Nə dediyimi yaxşı anlamaq üçün qulağın məndə olsun, bu sayaq

yağılıqlar: düzgünlüklə əyriliyi, doğruluqla yalanı, yaxşılıqla yamanı dəyərləndirməkdə baş verən anlaşılmazlıqlara görə olmurmu? Biz də, elə bütün qalan adamlar da, yalnız buna görə anlaşa bilməyib, biri-birimizlə yağı olmuruqmu?

Evtifron. Elədir, Sokrat, anlaşılmazlıqların çoxu elə bunlardan da yaranır.

Sokrat. Onda, tanrılar necə, Evtifron? Onlar arasında baş verən didişmələr də, buna görə olmurmu?

Evtifron. Sözsüz, belədir.

Sokrat. Sənin deməyindən belə çıxır, ay Evtifron, tanrıların da birilərinin: düzgünlük, doğruluq, yalan, yaxşılıq, yamanlıq saydıqlarını, o biriləri danırlar, yoxsa onlar başqa nə üçün çəkişməli idilər? Necə düşünürsən?

Evtifron. Sən düz deyirsən.

Sokrat. Demək, onların birilərinin düzgün saydıqlarını, o biriləri yanlış saydığından, onlar arasında çəkişmələr, savaşlar başlayır, elə deyilmi?

Evtifron. Elədir.

Sokrat. Oxşayır, hansısa nəsnəni, tanrıların biriləri sevir, o biriləri sevmir, ona görə də, bu nəsnə elə durduğu yerdəcə, tanrıların bəyəndiyi də, bəyənmədiyi də olur.

Evtifron. Oxşayır.

Sokrat. Onda, Evtifron, bizim bu araşdırmamızdan, möminliklə kafirliyin, ikisinin də elə bir nəsnə olduğu çıxmırmı?

Evtifron. Belə görünür.

Sokrat. Demək, istəkli arxadaşım, sən mənim sorğumu yanlış yanıtlamısan: mən səndən bir anın içində möminlik də, kafirlik də sayıla biləcək nəsnələri soruşmamışdım; sənin dediyin örnəklərdə tanrıların bəyəndikləri, bir anın içində onların bəyənmədikləri də olur. Beləliklə də, ay Evtifron, sənin atanı məhkəməyə çəkib yazıqlamaq istəyini, birdən Zevs bəyənib, Kronla Uran bəyənməsə, Hefest bəyənib, Hera bəyənməsə, bu sənə çöçün gəlməsin; elə başqa tanrıların da sənin görmək istədiyin işə baxışları biri-birindən seçiləcək, sən özün indicə onların düşüncələrinin biri-birinə tərs ola biləcəyini demişdin.

Evtifron. Ancaq mənə elə gəlir, Sokrat, burada tanrıların baxışları biri-biriylə tərs gəlməyəcək, onlardan biri də, düzgün olmayaraq adam öldürənin, bu suçunun altını çəkməli olduğunu yanlış saymayacaqdır.

Sokrat. Bu doğrudanmı belədir, Evtifron? Kimisə öldürmüş, yoxsa da hansısa yasanı pozmuş adamların, məhkəmədə özlərini doğrultmağa çalışdıqlarını görmədinmi, indiyəcən?

Evtifron. Elədir, adamlar bu sayaq işlərdən ötəri istər məhkəmədə, istərsə də başqa yerlərdə, eyzən söz güləşdirirməyi sevirlər. Çoxlarını görmüşəm, yasanı pozan işlər görüb, sonra da bunun altını çəkməkdən yaxa qurtarmaq istəyirlər.

Sokrat. Bunu necə anlamalı, ay Evtifron? Onlar yasanı pozduqlarını boyunlarına alırlar, ancaq nədənsə, buna görə sorumlu olmaq istəmirlər?

Evtifron. Elədir, bir çoxları suçlu olduqlarına baxmayaraq, sorumlu olmaq istəmirlər.

Sokrat. Demək, onların dedikləri də, elədikləri də yanlışdır. Mənə elə gəlir, onlar elədikləri suçun altını çəkməkdən boyun qaçırmağa ürək eləməzlər, buna görə də, yalana əl atıb, özlərini doğrultmağa çalışırlar. Səncə belə deyilmi?

Evtifron. Düz deyirsən, elədir.

Sokrat. Buradan isə görünən budur, bunlar suç işlədənin onun altını çəkməli olduğunu danmırlar, ancaq ortalığa söz atıb, baş qatmaq istəyirlər: bu suçun necə, harada işlənilməsindən asılı olaraq, onu suç sayıb-saymamaq üstə çəkişirlər, beləliklə də işi dolaşığa salıb, yaxalarını qurtarmağa çalışırlar.

Evtifron. Dediklərinin hamısı düzdür.

Sokrat. Bu deyilənlər, elə tanrılar üçün də belədir, necə sən deyirsən, onlar da düzgünlüklə əyriliyin nə olması üstündə savaşırlar, biriləri o birilərinin onlara qarşı düzgün davranmadığını deyir, o biriləri isə bunu danırlar. Bilirsənmi, niyə belə olur, istəkli arxadaşım, deyim biləsən, nə tanrılar, nə də insanlar, suçlu adamın onun altını çəkməli olmadığını dilə gətirməyə ürək eləmirlər.

Evtifron. Belə baxanda dediklərin hamısı düzdür, Sokrat.

Sokrat. Görünür, ortaya çıxan ayrı-ayrı durumlara görə anlaşmayanlar, çəkişməyə başlayırlar–insanlar da, tanrılar da (ancaq sözün düzü, mən tanrıların öz aralarında çəkişmələrinə inana bilmirəm): hansısa görülmüş işə görə anlaşa bilmirlər, biriləri deyir, bu iş yasaya uyğundur, o biriləri deyir, yox, belə deyil. Belədirmi?

Evtifron. Sözsüz, belədir.

Sokrat. Bax indi, arxadaşım Evtifron, sən bunları mənə başa sal, qoy mən də bu işlərdə sənin təki bilgin ola bilim: birisinin qulunu vurub öldürən günəmuzd işləyən adamı, öldürdüyü qulun yiyəsi tutaraq əl-qolunu bağlayırsa, sonra da

onunla yasalara uyğun olaraq necə davranacağını öyrənmək üçün ekzeqatın dalınca uzağa adam göndərirsə, soraq gec gəldiyinə baxmayaraq, bu adam öldürənin əl-qolunu açmırsa, o da buna görə ölürsə, de görüm, sən haradan bilirsən, tanrılar başqasının qulunu öldürüb sonradan özü də ölən bu adamın suçu olmadan öldürüldüyünü düşünürlər? Bununla yanaşı, qulu öldürülən adamın oğlunun, bu baş verənlərə görə doğma atasını məhkəməyə çəkməsini tanrıların düzgün saydığına məni necə inandıra bilərsən? Yalvarıram sənə, sənin indi görmək istədiyin bu işi tanrıların düzgün sayacağına məni inandır, sən məni buna inandıra bilsən, mən yorulmadan, gecə-gündüz, ancaq sənin bilgəliyindən danışacağıma söz verirəm.

Evtifron. Sənin istəyini yerinə yetirmək çox da qolay deyil, ancaq mən çalışaram, bunu sənin üçün yetərincə aydınlaşdırım.

Sokrat. Mən səni, indi bu üstünə gəldiyin hakimlərdən az başa düşdüyümü bilirəm, sənin onlara: atanın gördüyü işin yasaya uyğun olmadığını da, tanrıların bu sayaq işləri bəyənmədiklərini də, qolayca anladacağına da ürəkdən inanıram.

Evtifron. Mən bunu gərək olduğundan da qat-qat açıq-aydın onlara anladacağam, Sokrat, ancaq bircə onu bilmirəm, onlar məni eşidəcəklərmi?

Sokrat. Onlar, qaldırdığın işin düz olduğuna inansalar, səni eşidərlər. Ancaq sən danışdıqca, mən də öz üzləşdiyim işi düşünüb daşınıram, indi bununla bağlı, elə bu andaca, başıma batan bir sözü sənə demək istəyirəm: “Yaxşı, tutalım, Evtifron adı çəkilən adamın ölümünü tanrıların hamısının düzgün saymadığına məni inandırsa belə, mən onsuz da bundan, möminliyin nə, kafirliyin nə olduğunu anlamaq üçün, yeni nəsə öyrənmirəm. Görünən budur, belə bir işi tanrılar bəyənə bilməzlər; ancaq

bunu öyrənməyimiz, möminliklə kafirliyin nə olduğunu anlaya bilmək üçün yetərli deyil, bir az öncə də, göründüyü kimi, bizim araşdırmamızda tanrıların bəyənmədikləri ilə bəyəndikləri biri-biriylə tən oldular”. Ona görə də, Evtifron, gəl bu konuda söz güləşdirməyi saxlayaq, sən deyən təki olsun, qoy bütün tanrılar, sənin atanın gördüyü işi düzgün saymasınlar da, bəyənməsinlər də. Gəl bayaqdan apardığımız araşdırmalarımıza bir düzəliş eləyək: qoy elə kafirlik bütün tanrıların bəyənməyəcəyi nəsnələr olsun, onların hamısının bəyənəcəyi isə möminlik olsun, onların birilərinin bəyənib, o birilərinin bəyənməyəcəkləri üçünsə, ikisindən biri olsun: birincidə bunlar, nə möminlik, nə də kafirlik olsunlar, ikincidə isə tərsinə, bunlar yerinə görə, möminlik də, kafirlik də sayıla bilsinlər. De görüm, sən möminliklə kafirliyi belə anlamağımıza qarşı deyilsən?

Evtifron. Mənə elə gəlir, biz bu sayaq anlaşa bilərik.

Sokrat. Mənə də elə gəlir, ancaq sən indi bir də yaxşı-yaxşı düşün: bizim bu indiki anlaşmamızdan sonra, görəsən, mənə başa salmaq istədiklərini qolayca anlada biləcəksənmi?

Evtifron. Mənə qalsa, tanrıların hamısının sevdikləri nə varsa, onların möminliyə uyğun olduğunu, onların sevmədiklərinin isə, kafirliyə uyğun olduğunu deyərdim.

Sokrat. Yaxşı, Evtifron, gəl baxaq görək, bizim bu sözümüz yerindəmi deyilib, yoxsa bu dediyimizi bir qırağa qoyub, ona özgə bir söz də qoşmalıyıq–görəsən, bizim kəsə yolla anlaşmamıza aparan belə bir söz varmı? Başqalarının bu yerdə nə deyəciyini də araşdırmağa dəyərmi?

Evtifron. Bunlara da baxmağa dəyər, ancaq mənə elə gəlir, biz indi dediyimizdən yaxşısını tapa bilməyəcəyik.

Sokrat. Darıxma, istəkli arxadaşım, biz bunu indicə aydınlaşdırarıq. İndi isə, sən mənə de görüm: möminlik, tanrılar onu sevdiyi üçün möminlik olur, yoxsa o özü möminlik olduğu üçün tanrılar onu sevirlər?

Evtifron. Mən sənin nə demək istədiyini anlamadım, Sokrat?

Sokrat. Yaxşı, çalışaram, bir az da aydın danışım. Biz nələrisə: daşınanla daşıyan, aparılanla aparan, baxılanla baxan deyə adlandırırıqmı? Sən bu deyilənlərin arasında bir ayrılıq olduğunu duyursanmı, deyə bilərsənmi bu qoşalıqlar biri-birindən nə ilə seçilirlər?

Evtifron. Mənə elə gəlir, bunu başa düşürəm.

Sokrat. Deməli, hansısa sevimli adlanan varsa, ondan ayrı olan bir sevən də olur, deyilmi?

Evtifron. Başqa sayaq necə ola bilər?

Sokrat. Mənə de görüm, daşınan onu daşıdıqlarına görəmi belə adlanır, yoxsa başqa bir nədənə görə?

Evtifron. Sözsüz, ancaq buna görə, onu daşıdıqları üçün.

Sokrat. Eləcə də, aparılan–aparıldığına görə, baxılan–baxıldığına görə belə adlanırlar, elə deyilmi?

Evtifron. Ancaq buna görə.

Sokrat. Belə çıxır, ona baxmaq istəyən olmasaydı, o da baxılan ola bilməzdi, ona baxdıqları üçün də o, dönüb baxılan olur; eləcə də, onu aparan olmayana kimi, o aparılan ola bilməzdi, onu apardıqları üçün də o, dönüb aparılan olur; sonuncusu, onu daşımadıqca, o da daşınan ola bilməzdi, onu daşıdıqları üçün də o, dönüb daşınan olur. Elə bilirəm, mənim nə demək istədiyim aydındır, Evtifron, sözün

qısası: hansısa nəsnə nə isə bəlli bir ad daşıyırsa, hansısa bir duruma düşürüsə, bu özbaşına olmur, ancaq onun bu ad ilə, bu duruma yaramasına görə də, belə adlanır; o hansısa bacarığın daşıyıcısı ola biləcəyinə görə yox, o bacarığın daşıyıcısı olduğu üzə çıxdığı üçün, bəlli bir adı daşıyır, bəlli bir duruma düşür. Yoxsa, sən belə düşünmürsən?

Evtifron. Mən də belə düşünürəm.

Sokrat. Deməli, sevilən öz adını, qıraqdan ona yönələn sevginin olduğuna görə almışdır, deyilmi?

Evtifron. Sözsüz, belədir.

Sokrat. Demək, burada da elə dediyimiz təkidir: sevilən öz-özünə sevilən olmur, onu sevdikləri üçün də o, dönüb sevilən olur, deyilmi?

Evtifron. Düzdür.

Sokrat. Onda ay Evtifron, biz möminlik üçün nə deməliyik? Sənin dediyin kimi, tanrıların hamısı onu sevirmi?

Evtifron. Hə, sevirlər.

Sokrat. Onu ancaq elə möminlik olduğuna görəmi sevirlər, yoxsa başqa bir nədəndən?

Evtifron. Yox, ancaq elə buna görədir.

Sokrat. Deməli, tanrılar onu, ancaq möminlik olduğu üçün sevirlər, yoxsa onu sevdiklərinə görə o, möminlik olmamışdır, deyilmi?

Evtifron. Elədir.

Sokrat. Ancaq, bizim bayaqkı anlaşmamıza görə, savab işlər üçün belə deyil, tanrılar onları bəyəndiklər üçün, yalnız bəyənildikdən sonra, onlar belə adlanırlar!

Evtifron. Başqa necə ola bilər?

Sokrat. Onda, belə çıxır, ay Evtifron, savab iş görmək möminlik deyil, bunun kimi, möminlik də savab iş görməklə bağlı ola bilməz, bunlar biri-biri ilə tərs olan nəsnələrdir.

Evtifron. Bu necə olur, ay Sokrat?

Sokrat. Biz bir az qabaq, möminlik üçün bunu deməmişdikmi: tanrılar onu ancaq möminlik olduğu üçün sevmişlər, tanrıların onu sevməsinə görə, yalnız bundan sonra, onun möminlik olduğunu deməmişdik. Elə deyilmi?

Evtifron. Elədir.

Sokrat. Ancaq savab işlər üçün bunun tərsini deyirik, tanrılar onları bəyəndikləri üçün, yalnız bundan sonra, onlar savab sayılırlar.

Evtifron. Sən düz deyirsən.

Sokrat. Dəyərli Evtifron, buradan o çıxmırmı, savab iş görməklə möminlik bir olsaydılar, onda möminliyi tanrılar ancaq elə möminlik olduğu üçün bəyəndikləri kimi, savab işlər üçün də belə olmalıydı, onlar savab olduqları üçün də, tanrılar onları bəyənməli idi; başqa yandan, savab işlər, tanrılar onları bəyəndikləri üçün belə sayılırlarsa, onda möminlik də tanrılar onu bəyəndikləri üçün belə sayılmalıdır. Bizim apardığımız araşdırmada isə bunun tərsi alınır, sanasan, savab iş tutmaqla möminlik biri-birindən büsbütün ayrıdır: birisi sevildiyi üçün sevimli olur, o birisi sevimli olduğu üçün sevilir. Oxşayır, Evtifron, sən mənə möminliyin nə demək olduğunu aydınlaşdırmaq istəmirsən, onun özlüyünü-mahiyyətini mənə başa salmaq istəmirsən, ancaq ayrı-ayrı durumlarda bunun nə demək olduğundan danışırsan, qısası, onun bütün tanrıların sevimlisi olacağını deyib durursan. Bu

danışıqlarımız səni bezdirməyibsə, mənə qulaq as, sən gəl, bildiklərini məndən gizlətmə, bir də başdan başlayıb mənə aydınlaşdır görüm, möminliyin özlüyü-mahiyyəti nədir, onu tanrıların sevdiyinə görəmi o möminlikdir, yoxsa onun belə olmasının başqa bir nədəni də var? Özün də görürsən, biz bayaqdan elə buna görədir, söz güləşdiririk. Mənə açığını de görüm, səncə, möminlik nə, kafirlik nədir?

Evtifron. Ancaq, Sokrat, mən ha çalışıram, düşündüyüklərimi sənə bütün aydınlığı ilə çatdırıb deyə bilmirəm. Bizim araşdırmalarımızın sonucu, yan-yörədə fırlanıb, bizim onu bərkitmək istədiyimiz yerdə dayanıb durmaq istəmir.

Sokrat. Evtifron, sənin dediklərini mənim ulu babam sayılan Dedal* deməydi yeri vardı; mən öz araşdırmalarımda belə bir duruma düşsəydim, sənin mənə gülməyin də lap yerində olardı, mənim onunla qandaş olduğum üçün də, danışdıqlarımın sonucunun belə dayanıqsız olduğunu, mənim onları qoymaq istədiyim yerdən sürüşüb düşdüklərini düşünmək olardı; ancaq bu sonucları sən deyirsən, ona görə də burada gülünc görünən mən deyiləm, sən özün də görürsən, dediyin sözlərin üstündə dayana bilmirsən, bir az öncə dediklərini sonradan danmağa başlayırsan.

Evtifron. Ancaq mənə isə elə gəlir, ay Sokrat, burada sözü kim dolaşdırmaq istəyirsə, elə ona da gülmək gərəkir, burada deyilən sözlərin ağzını daşlığa salan mən deyiləm, məncə, elə sən də Dedal kimi, sözləri dolambaclara çəkib, azdırmaqdasan. Mənə qalsa, mən sözümü deyib, onun üstündə də dayanıram.

Sokrat. Qorxuram, bu işdə mən Dedaldan da irəli gedəm, istəkli arxadaşım, o kişi ancaq öz yaratdıqları cansız fiqurları yerindən oynada bilirdi, mən isə özümün də, özgənin də yaratdıqlarını yerindən oynadıram. Ancaq mənim bacarığımın köründə,

özümdən asılı olmayaraq ortaya çıxan bilgəliyim dayanır: mən Dedal kimi bacarıqlı, üstəlik Tantal kimi varlı olmağa çalışaraq, dediyim sözlərin öz yerini tutub, orada dayanıqlı olaraq qalmasını istəyirəm. Mənə elə gəlir, sən bu işdə çox gücsüzsən, ona görə də möminliyin nə demək olduğunu mənə necə başa salmağı, indi özüm sənə göstərəcəyəm; ancaq bax, çalış bərk dayanasan, özünü yerə vurmayasan. Necə bilirsən, möminlik sayılanların hamısı, elə düzgünlük demək deyilmi?

Evtifron. Mən də elə düşünməkdəyəm.

Sokrat. Onda de görüm, bütün düzgün olan nə varsa, hamısımı savab işlər sayılmalıdır, yoxsa, savab işlərin hamısı düzgünlük olacaq, ancaq düzgünlüklərin hamısı təkcə elə savab işlər olmayacaq?

Evtifron. Sokrat, sözün düzü mən sənin sözünü çatdırıb sonacan anlaya bilmirəm.

Sokrat. Sən məndən çox gənc olsan da, ancaq qat-qat bilginsən! Deyim biləsən, sən bilgəliyinin çoxluğundan bir az arxayınlaşıb, özünü boş buraxmısan. Ancaq, istəkli arxadaşım, özünü bir az topla: mənim dediklərimi anlamaq elə də ağır olmasın gərək; yaxşı anlaşılsın deyə, bir şeir örnəyinə baxaq, bəri başdan deyim, mən bu şairin dediklərini düzgün saymıram:

Bütün nə varsa, hamısını yaradan da, quran da Zevsdir,
Sən isə onu danırsan: qorxu ilə utanclığın(xəcalətin)
biri-birindən ayrılmaz olduğunu bilmirsən.

Mən isə deyirəm, bu şairin yazdığı düz deyildir... Deyimmi necə?

Evtifron. De görüm, bir.

Sokrat. “Harada qorxu varsa, orada utanclıq da var” sözünü mən yanlış sayıram. Çoxları vardır, yoxsulluqdan, xəstəlikdən, bu sayaq nəsnələrdən qorxurlar, ancaq bunlardan qorxduqlarına görə utanmırlar. Yoxsa, belə deyil?

Evtifron. Mən də elə düşünürəm.

Sokrat. Ancaq harada utanclıq varsa, orada qorxu vardır. Nəyə görəsə vicdanın ağrıyırsa, utanırsansa, o durumdan qorxursan, ondan yaxanı qurtarmağa çalışırsan!

Evtifron. Elədir, insanlar bu sayaq durumlara düşməkdən qorxurlar.

Sokrat. Ona görə də, “harada qorxu varsa, orada utanclıq vardır”,- deyimi düzgün sayıla bilməz; tərsinə, harada utancverici bir iş olursa, onun baş verməsindən yaranan bir qorxu da doğulur, burada işlər bir az başqa sayaqdır, biz yaşamda utanclıqdan qat-qat artıq, qorxu ilə üzləşirik. Utanclıq qorxunun ancaq bir kəsimidir, tək ədədlər bütün ədədlərin bir kəsimi olduğu kimi; indi dediyimizi ədədlərin üstündə yoxlasaq, bu alınar: harada ədəd varsa, orada tək ədəd ola da, olmaya da bilər; ancaq tərsinə, harada tək ədəd varsa, orada ədəd olduğunu dana bilmərik. İndi necə, dediklərimi çatdırıb qavraya bilirsənmi?

Evtifron. Hə, indi nə dediyini anlayıram.

Sokrat. Mən səndən: harada düzgünlük varsa, orada möminlik də varmı, yoxsa tərsinədir, harada möminlik varsa, orada düzgünlük var?–deyə soruşanda, bax bunu deyirdim, sonra da, düzgünlüyün olduğu bütün yerlərdə möminlik olmaya da bilər, demişdim. Ona görə də, möminlik düzgünlüyün yalnız bir kəsimidir, səncə biz bunu: düzmü deyirik, yanlışmı?

Evtifron. Yox, mən də belə düşünürəm. Mənə elə gəlir, sən çox doğru danışırsan.

Sokrat. Onda gəl, ardına baxaq: möminlik düzgünlüyün bir kəsimidirsə, biz indi gərək onun düzgünlüyün hansı kəsimi olduğunu da kəsinliklə ayırd etməyə çalışaq. Sən məndən qoşa(cüt) ədədlərin, ədədlər çoxluğunun hansı kəsimi olduğunu soruşsaydın, onun nədən qoşa adlandığını bilmək istəsəydin, mən onda bu qoşa ədələrin, tək ayaq üstə dayanıb səntirləmədiyini, tərsinə, iki ayaqları üstə bərk dayandığını deyərdim. Yoxsa sən başqa sayaq düşünürsən?

Evtifron. Yox, mən də sənin kimi düşünürəm.

Sokrat. Bax, sən də indi möminliyin, düzgünlüyün hansı kəsimi olduğunu bunun kimi aydınlaşdır, qoy bu Melet də, məni tanrıtanımazlıqda suçlaya bilməsin, mən səndən doğruluğun, möminliyin nə demək olduğunu yetərincə öyrənib bilərəmsə, o da məhkəmədə, mənim qarşımda duruş gətirə bilməz.

Evtifron. Beləliklə də, Sokrat, mənə elə gəlir, düzgünlüyün tanrılara qulluq göstərməklə bağlı olan kəsimi, doğruluqdur da, möminlikdir də; düzgünlüyün yerdə qalan kəsimi isə insanların qayğıları üçündür.

Sokrat. Mənə elə gəlir, sən bunu çox gözəl dedin, ay Evtifron, ancaq burada mənim üçün kiçik bir anlaşılmazlıq qaldı: sən burada, qulluq deyəndə, qayğı deyəndə, nəyi anlatmaq istəyirsən?–yoxsa demək istəyirsən, tanrıların qayğısına qalmaq da, bütün yerdə qalanların qayğısını çəkmək də, elə hamının bacaracağı bir işdir? Örnək üçün, istənilən insan atların qayğısını çəkməyi bacarmaz, atlara düzgün qayğını, ancaq bu işin biliciləri olan minicilər göstərə bilər. Belə deyilmi?

Evtifron. Elədir.

Sokrat. Atı yaxşı yeriməyə öyrətmək, atların qayğısına qalmaq sayılırmı?

Evtifron. Sayılır.

Sokrat. İtləri də istənilən birisi yox, ancaq ovçular öyrədə bilir, deyilmi?

Evtifron. Elədir.

Sokrat. Demək, ovçuluq itlərə qayğı ilə bağlıdır?

Evtifron. Hə, elədir.

Sokrat. İri buynuzlu mal-qaranı bəsləmək, onların qayğısına qalmaq deyilmi?

Evtifron. Elədir.

Sokrat. Sən indi demək istəyirsən, möminliklə, doğruçuluq da tanrıların qayğısına qalmaqdır, eləmi?

Evtifron. Düzdür, onu deyirəm.

Sokrat. Ancaq qayğıların hamısı özlüyündə, elə biryönlü olmurmu? Belə deyək də, onların hamısı, yönəldiyi nəsnənin yararına, yaxşılaşmasına yönəlir: tutalım, bayaq dediyimiz kimi, atları yaxşı yeriməyə öyrətmək, onların yararınadır, bundan sonra onlar öncəkindən qat-qat yaxşı olurlar, eləmi?

Evtifron. Elədir.

Sokrat. Bunun kimi də, itlər ovçuların qayğısından, kəllər əkinçilərin qayğısından yaxşılaşırlar, o biriləri də bunun kimi. Yoxsa, sən düşünürsən, belə qayğılardan onlar korlana bilərlər?

Evtifron. Yox, and olsun Zevsə, mən belə düşünmürəm.

Sokrat. Deməli, bu qayğılar işə yaramaq üçündür?

Evtifron. Başqa necə ola bilər?

Sokrat. Onda belə çıxmırmı: möminlik, tanrıların qayğısına qalmaqdırsa, o da tanrıların işinə yaramalıdır, onları yaxşılaşdırmalıdır, deyilmi? Eləcə də sən, savab

işlər görəndə tanrılardan hansınınsa işinə yaradığını, onu yaxşılaşdırdığını düşünürsən?

Evtifron. Sən nə danışırsan, Sokrat, and olsun Zevsə, mən belə düşünmürəm!

Sokrat. Sözün düzü, elə mən də belə düşünmürəm, nə də səndən belə bir söz də eşitməmişəm! Elə ona görə də, indi səndən, tanrılara qulluq etməyin nə demək olduğunu soruşuram. Mən sənin bu qayğını, o biri qayğılarla bir tutduğunu da düşünmürəm.

Evtifron. Düz də eləyirsən, Sokrat, mən tanrı üçün çəkilən qayğıları o biriləri ilə qarışdırmıram.

Sokrat. Yaxşı da, di onda de görək, tanrılara hansı sayaq qulluq göstərmək, möminlik sayılacaqdır?

Evtifron. Bax elə qulların, öz ağalırına qulluq göstərdikləri kimi.

Sokrat. Anladım: deməli tanrılara qulluq eləməyin yolu budur.

Evtifron. Sözsüz, elədir.

Sokrat. Onda deyə bilərsənmi, həkimin qulluğu, onun qulluq elədiyi kimsənin işinə necə yarayır? Ona sağlamlıq gətirmirmi?

Evtifron. Gətirir.

Sokrat. Gəmi uzmanının qulluğu nəyə yarayır?

Evtifron. Aydındır da, Sokrat, gəmi düzəltməyə.

Sokrat. Tikinti uzmanının qulluğu ev tikməyə yarayır, deyilmi?

Evtifron. Elədir.

Sokrat. Elə isə, ay yaxşı kişi, bir de görüm, tanrıya qulluq eləmək hansı işə yarayır? Sənin bunu bildiyinə söz ola bilməz, bir az öncə özün demişdin, tanrılarla bağlı olan işləri sən başqalarından qat-qat yaxşı bilirsən.

Evtifron. Mən bunu düz demişdim, Sokrat.

Sokrat. Çox gözəl, and verirəm səni Zevsin adına, məni başa sal görüm, o hansı mat qalmalı işdir belə, tanrılar onu görmək üçün, bizim qulluğumuzdan yararlanırlar?

Evtifron. Onların gördükləri, mat qalmalı işlər sayagəlməzdir, Sokrat.

Sokrat. Elə qoşun başçıları da, çoxlu mat qalmalı işlər görürlər, dəyərli arxadaşım; ancaq bunu elə sən də boynuna alarsan, onların başlıca işi apardıqları savaşı udmaqdır. Belədirmi?

Evtifron. Başqa necə ola bilər?

Sokrat. Elə əkinçilər də, mənim bildiyimə görə, adamım matını-qutunu qurudan çoxlu işlər görə bilirlər; ancaq onların başlıca işi, torpaqdan öz yeyəcəklərini götürməkdir.

Evtifron. Düzdür.

Sokrat. Yaxşı indi nə deyirsən? Tanrıların adamın qutunu qurudan işlərindən ən başlıcası hansıdır?

Evtifron. Mən sənə elə indicə dedim də, Sokrat, burada sonacan anlaşılması gərəkən olduqca çoxlu işlər vardır. Sənə lap lorusunu deyim, birisi tanrıların bəyəndiyi hansısa sözü deyir, hansısa işi görürsə, tutalım, tanrılara alqış deyirsə, onlara qurban verirsə, bu artıq möminlikdir, bu kimi işlər isə ayrı-ayrı adamların

evlərini də, dövlətin sarsılmazlığını da qoruya bilir; tanrıların bəyənmədiyi işləri görmək isə küfrdür, bunlara görə də, dağıntılar, ölüm-itimlər yaranır.

Sokrat. Ay Evtifron, sən istəsəydin, məni başa salmaq üçün, kəsə də danışa bilərdin. Ancaq belə görünür, sən məni öyrətmək istəmirsən. Bax elə indi olduğu kimi, axtardığımızı tapmaq üzrəykən, sən birdən sözü yana atmağa başlayırsan. Ancaq mənim istədiyimi desəydin, onda mən də səndən möminliyin nə demək olduğunu yetərincə öyrənərdim. Diləyən, dilədiyini verəcək kimsənin ardınca düşüb getdiyi kimi, sən də məni arxanca apar, möminliklə kafirliyi necə başa düşdüyünü mənə anlat. Yoxsa, bunlar necəsə, dua eləməklə, qurban vermək bacarığından asılı olan nəsnələrdir?

Evtifron. Düz deyirsən, bunlarla bağlıdır.

Sokrat. Ancaq tanrılara qurban vermək, onlara nəsə bağışlamaq, dua eləmək, onlardan nəsə diləmək üçün deyilmi?

Evtifron. Elədir, bunun üçündür.

Sokrat. Onda sənin sözündən belə çıxır, möminlik–tanrılardan nələrisə istəyib, qarşılığında isə onlara nələrisə bağışlamağın yolunu bilmək deməkdir.

Evtifron. Sən mənim dediklərimi çox gözəl anlamısan, Sokrat.

Sokrat. Mən sənin bilgəliyinin vurğunu olduğum üçün, dediklərinə elə qulaq kəsilmişəm, bir sözünü də buraxmıram. Yaxşı, indi mənə başa sal görüm, tanrılara qulluq etmək necə baş verir? Sənin deməyinə görə bu, onlardan nəyisə istəmək, bir də onlara nəyisə bağışlamaq deməkdir, eləmi?

Evtifron. Elədir.

Sokrat. Tanrılardan bizə gərək olanları istəyirik, deyilmi?

Evtifron. Sözsüz, nə gərəyimizsə, onu da istəyirik.

Sokrat. Onda istədiyimizin qarşılığında, tanrılara, bizdə olub, onlara gərək olası nələrisə verməliyik, eləmi? Yoxsa, götürüb kiməsə, onun gərəyi olmayan nəyisə bağışlamaq anlamazlıq sayılmazmı?

Evtifron. Düz deyirsən, Sokrat.

Sokrat. Demək, bayaqdan dediklərimizin çıxarı belədir: möminlik–insanın tanrılarla alver eləmək bacarığıdır.

Evtifron. Bəyənirsənsə, alver bacarığı da deyə bilərsən, qoy lap belə olsun.

Sokrat. İş burasındadır, mən bu sözü bəyənmirəm, sözsüzdür, belə demək düz çıxmır. De görüm, bizim qurban verdiklərimizdən, tanrılar nə qazanırlar? Onların bizə verdikləri hamıya bəllidir, bizim üçün yaxşı olan nə varsa, hamısını onlar bizə verir. Ancaq bizim onlara verdiklərimiz də, onlara gərəkdirmi? Yoxsa, bu aldım-verdimdən ancaq biz qazanırıq, onlardan aldığımız yaxşılıqların qarşılığında, onlara nəsə vermirik?

Evtifron. Sokrat, sən doğrudanmı elə düşünürsən, tanrılar bizim onların adına verdiklərimizdən hansısa qazanc götürməyə çalışırlar?

Sokrat. Elə isə, onda biz nə üçün, onlara nəsə verməyə çalışırıq?

Evtifron. Sən mənim dediklərimi nədən belə yanlış yozursan, mən tanrı adına verdiklərimizin tanrıların bu işimizi bəyənməsi üçün olduğunu deməmişdimmi?

Sokrat. Demək, ay Evtifron, möminlik–tanrıların bəyənəcəyi işləri görmək imiş, onların işinə yarayan, onlara gərəkli olan işləri görmək deyilmiş, eləmi?

Evtifron. Yox, elə niyə, bu elə tanrıların işinə yarımaqdır da.

Sokrat. Deməli, möminlik elə tanrıların işinə yarımaq demək imiş.

Evtifron. Sözsüz, belədir.

Sokrat. Bütün bu dediklərindən sonra, danışdığın sözlərin o yan bu yana vurnuxub, bir yerdə dayanmamağı sənə nədən çöçün gəlir, özün Dedalsayağı, sözləri çevrə boyu fırladırsan, sonra da məni Dedal kimi sözləri ora-bura qovmaqda suçlayırsan! Yoxsa, bizim danışığımızın fırlanıb yenidən, onu başladığımız yerə gəlib çıxdığını duymursan? Bir az öncə biz, möminliyin elə özünün möminlük olduğuna görə, onu tanrıların bəyəndiyini demişdik, indisə, biz tanrıların bəyənməsi üçün elədiyimiz işlərin möminlik olduğunu deyirik, bayaq dediklərimizi unutmusan yoxsa?

Evtifron. Yox, unutmamışam.

Sokrat. Elə isə, nədən indi də tanrıya gərək olanla, yəni savab işlərlə, möminliyin bir olduğunu deyirsən? Savab işlər, onları tanrılar bəyəndikləri üçün belə olmurlarmı? Yoxsa, sən belə düşünmürsən?

Evtifron. Yox, belə də düşünürəm.

Sokrat. Elə isə, demək biz bir az öncə yanılmışıq, yox, birdən onda düz demişiksə, deməli indi yanılırıq.

Evtifron. Oxşayır, elədir.

Sokrat. Belə çıxır, biz gərək möminliyin nə demək olduğunu lap başdan başlayıb, yenidən araşdırmağa başlayaq: mən bunu öyrənməyincə səndən əl çəkən deyiləm. Yalvarıram sənə, biliyini məndən əsirgəmə, bütün gücünü toplayıb, mənə bunu başa sal. Bunun nə demək olduğunu ən yaxşı bilən sənsənsə, onu səndən öyrənəcən haracan desən çəkçevir eləməkdən bezməyəcəyəm. Sən möminliklə kafirliyin nə demək olduğunu yaxşıca bilməsəydin, hansısa günəmuzd işçinin ölümünə görə

qoca atanı məhkəməyə çəkməzdin, yanlış addım atacağına görə tanrılardan çəkinərdin, ola bilsin də adamlardan da utanardın. Ancaq sən çəkinmədən bu addımı atırsansa, deməli, möminliklə kafirliyin nə demək olduğunu bütün aydınlığı ilə bilirsən. Ona görə də, istəkli Evtifron, nə olar, bu konuda düşündüklərini aç, mənə danış.

Evtifron. Gəl bunu sonraya saxlayaq, Sokrat. İndi bərk tələsirəm, qaçaraq, başqa bir yerə getməliyəm, yoxsa gecikərəm.

Sokrat. Bu nə oyundur, sən çıxarırsan, istəkli arxadaşım! Möminliklə kafirliyin nə demək olduğunu mənə öyrətmədən hara gedirsən, niyə mənim ürəyimi sındırırsan, mən də bayaqdan, sənə araxayın olub Meletin qarşısına necə çıxacağımı düşünürəm, səndən öyrəndiklərimdən ürəklənib, ona bunları deyəcəkdim: Melet, gözünü aç, mənə yaxşı-yaxşı bax, mən Evtifrondan tanrılarla bağlı işlərin hamısını yetərincə öyrənib bilgə olmuşam, əl çək mənim yaxamdan, mən artıq elə bilgəlik qazanmışam, yanşaqlığımdan da əl çəkirəm, yenilik adlandırdığım yanlışlarımdan da daşınıram, Evtifrondan öyrəndiklərimə arxalanıb, bugündən belə, qalan bütün ömrümü ərdəmli yaşayacağam!

Yopumlar.

Likey–Afinanın qırağında, Apollonun adına açılmış qimnasiyanın olduğu kiçik şəhərcik, sonralar Aristotel burada özünün fəlsəfə okulunu açmışdı.

Ekzeget–Afina dövlətində, ölüm işlərini araşdıran görəvli kimsələrə deyilmişdir.

Evtifron–Evtifron əski yunancada: “doğru düşünməyi bacaran” anlamındadır.

Dedal–Mifik yunan mühəndisidir, onun indiki dillə desək, ilkin robotları düzəltdiyini, o çağlar üçün yeni olan başqa mühəndis qurğularını yaratdığı deyilir.

Rus dilindən Araz Gündüz çevirib.

Qaynaq: Platon. Dialoqi (rus dilində) Moskva: Mısl, 1986.